**UOT:821.111**

# İNGİLİS ƏDƏBİYYATININ ZƏNGİN XƏZİNƏLƏRİNDƏN- C.Q.BAYRONUN "QABİL" PYESİNİN ROMANTİK QƏHRƏMANI

***f.ü.f.d. Rüstəmova İlhamə Saleh qızı***
***Gəncə Dövlət Universiteti***
*caneli.kesemenli@mail.ru*

**Xülasə:** *Qədim Şərq, Orta Əsrlər dövrü və Renessans Avropası, nəhayət romantizmin özü- bütün bunlar bəşər tarixinin mərhələləri olmaqla yanaşı, həm də nəhəng sosial-kulturoloji məfhumlardır. Romantizm ədəbiyatının, incəsənətin mərkəzində ilk növbədə insan dururdu. Bu insan, yəni romantizm ədəbiyyatında təsvir olunan qəhrəman tarixi hadisələrdən məhdud olmayan imkanlar, yeni yaradıcı fəaliyyət azadlığı gözləyirdi. Bu şəxsiyyət bəşəriyyətin, təbiətin hansı qanunlarla yaşadığını, inkişaf etdiyini dərk etmək, tarixi prosesdə iştirak etmək istəyirdi. Romantik qəhrəman azadlıq idealını ürəyində bəsləyirdi və bu ideal uğrunda döyüşməyə hazır idi. Azadlıq da öz növbəsində çox geniş şəkildə izah edilə bilərdi- ictimai-siyasi azadlıqdan başlayaraq yaradıcılıq azadlığına qədər.*

**Açar sözlər:** romantizm, konsepsiya, romantik qəhrəman,azadlıq.
**Ключевые слова:** романтизм, концепция, романтический герой, свобода.
**Keywords:** romanticism, conception, the romantic hero, freedom.

Romantikləri təkcə insan fərdi maraqlandırırdı. Bu da tam təbii idi, çünki hər bir fərd, hər bir insan təkrarolunmazdır. Romantik sənətin məqsədi də insan qəlbinin xüsusi, unikal xüsusiyyətlərini üzə çıxarmaqdan ibarət idi. Azad yaradıcılıq və sənətkarın, yaradıcı şəxsin sənətdə rolu haqqında ideyasını da məhz romantiklər elan etmişdi. Bu ideyadan yeni bir ideya- yazıb yaratmağa yalnız azad şəxsiyyətin qadir olması ideyası meydana gəlir. Novalisin qeyd etdiyi kimi, " həyatın mənasını yalnız yaradıcı insan, sənətkar dərk edə bilər" [1, s.69]. Şellinqin fikri daha da qətidir. O deyir ki, "sənət adamı, yaradıcı şəxs iki əks qütbün- şüurlu və şüursuz başlanğıcın vəhdətidir" [1, s.73].

Romantik ədəbiyyat öz inkişafında bir neçə mərhələdən keçmişdi. İngilis ədəbiyyatında romantik cərəyanın üç böyük dövrü nümayiş olunur; yəni bu üç dövrdə hakim bədii ruh romantik idi. Bu, əlbəttə ki, klassik ruhun olmadığı anlamına gəlmir; romantik zirvədə belə, kifayət qədər klassik düşüncələr var idi. Beləliklə, ingilis romantizm cərəyanı üç rübə bölünür, paleo-romantizm, meso-romantizm və neo-romantizm, və yaxud Orta əsr, Elizabet dövrü və Müasir romantizm [2, s.13]. Təbii ki, romantik qəhrəman da müəyyən dəyişikliklərə məruz qalmışdı. Belə ki, erkən romantiklər son dərəcə nikbin idi. Buna səbəb Böyük Fransız inqilabının gətirəcəyi "Yeni dünyaya", ümumiyyətlə, insan hüquqlarının olduğu ideal cəmiyyətin qurulmasına bəslənən ümidlər idi [3, s.13]. Lakin, XIX əsrin birinci onilliyində həmin nikbinlik sona yetir, mütləqiyyətin və kubarlığın zülmü pulun, maddi marağın hökmü ilə əvəz olunur. Nəticədə insan şəxsiyyəti, yaradıcı şəxs yenə də reallığın məngənəsində çırpınır. Reallıq insanı özünə tabe edir və insan qəlbinin, ruhunun tam azadlığını əsas tutan dünyagörüşü, ruhun obyektiv reallıqdan asılılığını elan etməsi ilə əvəz edilir[4, s.12].

Ümumiyyətlə, romantik qəhrəman məfhumu çox mürəkkəb bir məfhumdur. Hər bir ədəbi əsərdə baş qəhrəman həlledici rol oynayır. Romantik əsərdə isə baş qəhrəman öz spesifik xüsusiyyətlərinə malikdir. Həmin xüsusiyyətlərin başlıcası- romantik qəhrəmanın onu əhatə edən gerçəklikdən narazı olması, həmin gerçəkliyə qarşı açıq, kəskin etirazı, hətta onunla mübarizə aparmasıdır. Ingilis romantizmi heç vaxt monolit bir cərəyan olmamışdır. İngilis romantikləri iki qola-aktiv (fəal) və passiv romantiklərə bölünürdülər. C.Q.Bayron və

P.B.Şelli ingilis romantizminin aktiv qolunu, V.Bleyk, V.Vordsvort, S.T.Kolric isə - passiv qolunu təmsil edirdilər. Bayron özünün, ədəbiyyatda tam yeni olan insan konsepsiyasını yaratmışdı. Avropa romantizmində Bayron qədər insan şəxsiyyətinin "mütləqiyyətini" təsdiq edən, onu müdafiə edən ədib yox idi. Bayronun yaratdığı şəxsiyyət konsepsiyası Avropa humanist dünya görüşününün, təfəkkürünün, inkişafının mühüm və məntiqi nəticəsi idi. Byron, ekzotik və tarixi şərtlərin şiddət və dramını istismar edən əsərlərlə bütöv Avropaya böyük bir şöhrət gətirdi. Höte Bayron haqqında deyirdi ki: "Şübhəsiz ki, o bizim əsrimizin ən böyük dahisidir" [5, s.215].

Dünya romantizmi tarixində Bayron bəlkə də ən subyektiv romantikdir. Şairin bütün əsərlərində, qəhrəmanların hamısında müəllifin öz şəxsi xarakterinin bir hissəsinin əks olunması daim hiss olunur, duyulur. Eyni zamanda, Bayronun qəhrəmanlarını "bayronik qəhrəmanla" eyniləşdirmək düzgün olmazdı. Bayronun yaradıcılığında romantik qəhrəman məvhumu tam şəkildə formalaşır, onun ən tipik xüsusiyyətləri cəmləşir. Bu qəhrəmanlar nə qədər oxşar cəhətlərə malikdirsə, eyni zamanda dayanıqlı deyil, onlar fərqli xüsusiyyətlərə də malikdir və bu obrazlar böyük və ciddi inkişaf yolu keçir. Həmin inkişaf yolu sözsüz ki, müəllifin dünyagörüşünün təkamülünü özündə əks edirdi. Bayronun yaradıcılığı, onun yaratdığı romantik qəhrəmanlar silsiləsi həmin təkamülün parlaq nümunəsi ola bilər. Şübhəsiz ki, Bayronu onun qəhrəmanları ilə eyniləşdirmək düzgün olmazdı. Lakin, belə eyniləşdirmə vaxtikən mövcud idi və bunun da obyektiv səbəbləri var idi. Eyniləşdirmə Bayronun ilk iri həcmli əsəri "Çayld-Haroldun ziyarəti" poeması nəşr olunandan sonra başlamışdı. Poema nəşr olunduğu gündən oxucular artıq tam əmindilər ki, Çayld-Harold müəllifin özüdür. Bu əlbəttə ki, yalnış fikir idi. Bayronun Avropaya səfəri, " Çayld Haroldun ziyarətləri" (1812) adlı poemanın ilk iki kantosu - bir gəncin Avropanı sərgüzəştləri ilə bağlı bir epik qəhrəmanlıq əsəri ilə nətricələndi. Əsər eyni zamanda London ictimaiyyətinə qarşı kəskin bir satira idi. Bayron poemada 1809-1811-ci illər arasında səfərlərində qazandığı təcrübələrdən də bir sıra hekayələr xətti yaratdığına görə əsər həmçinin, avtobioqrafik cəhətdən düşünülmüş elementləri ehtiva edir [6, s.32].

Bayronun Yunanstanda milli azadlıq hərəkatında iştirak etməsi, onun həyatı, bədii axtarşları onun qəhrəmanlarının daxili aləmini anlamaq üçün həm də bir vasitə hesab oluna bilər. N.A.Dyakonova qeyd edir ki, "Şərq poemalarında qəhrəmanların şəxsi azadlığı heç nə ilə məhdudlaşmır. Ona görə də, şəxsi azadlıq siyasi azadlıqla sıx şəkildə birləşir, qəhrəman artıq düzgün qurulmamış cəmiyyətlə titanik mübarizəyə qalxırdı. Bu da öz növbəsində romantizmdə azadlıq konsepsiyasının özünə artıq tam yeni, ictimai-siyasi məna əlavə edirdi. Buna görə Bayronun Missolungidə vəfatı şairin əvvəlki imicini, simasını, cəmiyyətin ona münasibətini də köklü şəkildə dəyişmişdi. Bayron artıq təkcə "məğrurluq şairi" kimi deyil, əsl döyüşçü əsgər kimi xarakterizə edilirdi. Yəni, romantik şair Bayron öz təxəyyülünün, yaratdığı qəhrəmanlarının, ekzotik və maraqlı süjetlərin qulu deyildi. Bayron o zaman Balkan yarımadasında baş verən və əsasən Böyük Fransız inqilabının nəticəsi olan hadisələrin diqqətli və həssas müşahidəçisi və fəal iştirakçısı idi " [7, s.131].

Romantizmdə şəxsiyyət problemi ön plana çəkilir, mərkəzi problemə çevrilir. Bütün başqa problemlər şəxsiyyətin ətrafında qruplaşır və ilk növbədə şəxsiyyətlə əlaqələndirilir. Romantik sənətin estetikasında dünyanın dərk edilməsi nəticə etibarı ilə, özünü dərk etməkdən ibarətdir. Həqiqətən, klassisist və maarifçilərlə müqayisədə romantik əsərlərdə baş qəhrəmanın obrazı tam yeni şəkildə izah olunuur. Yəni romantik qəhrəman artıq obyekt kimi deyil, subyekt kimi çıxış edir və məhz bu subyekt ətraf gerçəkliyi müəyyən edir, onu formalaşdırır.

Belə qəhrəmanlardan biri, bəlkədə onların ən nümunəvi tipi-Bayronun məşhur drama-misteriyasının baş qəhrəmanı Qabildir. "Qabil" əsərinin taleyi çox mürəkkəb olmuşdu. Buna səbəb də şairin Bibliyadan götürdüyü məşhur süjeti tam yeni şəkildə izah etməsi idi. Bayronun əsərində Qabil Bibliyadan fərqli olaraq müsbət qəhrəmandır. Qabil Yahvanın hökmü ilə barışmaq istəmir və öz valideynləri Adəm və Həvvaya özünü narahat edən sualları verir, bir çox qaranlıq məsələlərə aydınlıq gətirmək istəyir. "Yahva haqlıdırsa, həyatda nə üçün bu qədər haqlısızlıq var? Mən nə üçün atamın, anamın günahı üzündən əzab çəkməliyəm? Həyatın mənası nədədir?" - oğlunun bu sözlərini eşidən Adəm, Həvva dəhşətə gəlirlər. Qabil qardaşı Habilə müraciət edir, qəlbinin çırpıntısı onunla bölüşmək istəyir, lakin qardaş onu başa düşmür. Burada mühüm, ciddi bir məqamı qeyd etmək lazımdır: Qabil Tanrıya qarşı üsyan qaldırmır. O yalnız həyatda mövcud olan mürəkkəbliyin, qarışıqlığın, nəhayət haqsızlığın səbəbini nədə olduğunu dərk etmək istəyir. Bu da yenə də Bayronun dinə qarşı şəxsi münasibəti ilə sıx bağlı olan bir məsələdir. Bayron heç zaman Tanrıdan üz döndərməmişdi və İsa Məsih onun gözündə ideal bir şəxsiyyət idi. Lakin, Bayron rəsmi dindən artıq tələbəlik illərində ayrılır və rəsmi kilsəyə nifrətini açıq bildirməkdən heç vaxt çəkinmirdi. Qabilin də dili ilə Bayron əslində özünü narahat edən fikirləri, düşüncələri oxucularına çatdırmaq istəyir-dünya necə qurulub? Dünyanın mənası nədir? Həqiqət nə üçün tapdalanır? İnsan həyata nə üçün gəlir? Bu suallara cavab tapmaq üçün Bayron öz qəhrəmanı Qabili Lütsiferlə görüşdürür. Görüş Qabilin mənəvi ehtiyacından irəli gəlirdi və o artıq bu görüşə daxilən hazır idi. Lutsiferlə görüş sanki Qabilin gözlərini əsl həqiqətə açır və Qabil çox dərin təəssüflə etiraf edir ki, bilik ona xoşbəxtlik gətirmir, əksinə mənəvi yükünü daha da ağırlaşdırır. Bayronun izahında Qabil qardaş qatili deyil. Qabil bəşər tarixində ilk üsyankardır və o hətta Yahvanın, Tanrının özünün belə hökmünü kor-korana qəbul etmir, onu dərk etməyə çalışır. Bayron Qabil obrazında mühüm bir məsələni vurğulayır-Yahvanın sadiq qulu olan Habilin övladı yoxdur. Qabilin isə oğlu var, demək, bəşər tarixini sadiq qullar deyil, üsyankar, azad idraklı, düşünən insanlar davam edir. Belə nəticə tam məntiqidir və aktiv (fəal) romantiklərin, xüsusəndə Bayronun həyat və yaradıcılıq mövqeyi ilə üst-üstə düşür.

Bayronun qəhrəmanları ciddi təkamül yolu keçir- ilk passiv qəhrəman Çayld-Harolddan, "Şərq poemaları"nın bütün dünyadan qisas alan qəhrəmanlardan, dərin düşünən, intiqam hissindən uzaq, düşünülmüş etiraz sahibi olan Qabilə qədər.

Bayron öz qəhrəmanına birmənalı yanaşmır. Bir tərəfdən Bayron öz üsyankar qəhrəmanlarının - Lütsifer və Qabilin intellektual qüdrətini, onların sonsuz şücaətini və mətinliyini dönə-dönə vurğulayır, digər tərəfdən onların xarakterində olan qəhrəmanlıq xüsusiyyətlərinin faciəvi olaraq quruculuğa yönəlməsini, əksinə hər şeyi viran qoymasını göstərir. Qabilin faciəsi - biliyin zirvəsinə ucalmış və biliyin insana xoşbəxtlik gətirmədiyini dərk etmiş insanın faciəsidir. Qabil nə eqoist, nə də tənha üsyankar deyil. Onun üsyanı bütün bəşəriyyyətin halına yandığından irəli gəlir. Qabil öz yaxınlarına onların qul itaətkarlığına görə nifrət edir və eyni zamanda insanların xoşbəxtliyi üçün hər şey etməyə hazırdır. Lütsiferin mənəvi sarsılmazlığa, gördüyü haqsızlıqla barışmamağa çağırışı Qabilə daxilən çox yaxındır. Belə ki, Bayronun Lütsiferi Qabilin tərəfdarıdır, onun köməkçisidir, o Qabilə dəstək verir və bir üsyankar kimi əsl romantik qəhrəman üçün səciyyəvi olan bütün xüsusiyyətlərə malikdir.

Bayronun yaradıcılığının ali məqsədi insan təbiətinin dərinliyinə gedib, onu anlamaqdan ibarətdir. İnsan təbiətin zirvəsi, onun əşrəfidir. Yer üzündə bütün müharibələri də, zülmü də, pislikləri də məhz insan, yəni təbiətin tacı törədir. Dünyanın bütün bəd əməlləri məhz insanın əlindən gəlir. Bu fikir "Qabilin" sonu ilə üts-üstə düşür. Qabil qardaşı Habil haqqında deyir ki "o (Habil) sonsuz idi" [8, 232]. Yəni, insan nəslini məhz Qabilin

övladı davam edəcək. Bunlar da, Qabil kimi heç vaxt, heç bir qanunu, qaydanı, ehkamı kor-korana qəbul etməyib, dərin düşünüb, həyatın ən çətin suallarına cavab tapmağa çalışacaqlar. Bu cəhətlər bəşər tarixində ən gözəl insanlara xas olacaq.

Hissin və əqlin arasında ziddiyyət Qabilin də xarakterində nəzərə çarpır. Bayronun qəhrəmanı dərin biliklərə yiyələnməklə xoşbəxtlik tapa bilmir, çünki, bu bilik onun halına acıdığı insanlara xoşbəxtlik gətirməmişdi. Drama-misteriya axırda Qabilin faciəsinə çevrilir. Qabil Bibliya əsatirinə uyğun olaraq, əbədi sərgərdan gəzməyə məhkumdur. Lakin, Qabil nə özünün azadlıq idealından imtina edəcək, nə də bununla yanaşı vicdan əzabından qurtula biləcək. Qabil hara getsə, orada azad düşüncə, üsyankarlıq toxumları səpilir, insanların gözü həqiqətə açılır. Qabil, onun kimi insanlar heç nəyə tabe olmamalıdır, tabe ola da bilməz. İnsan oğlu daim həyatda yanılacaq, səhvlər edəcək və bu da bütün bəşəriyyətin keçdiyi yoldur. Bayron Bibliyadan götürdüyü məşhur əfsanədən həyat və bilik, Xeyir və Şər, varlıq və ölüm haqqında fəlsəfi düşüncələrin başlanğıc nöqtəsi kimi istifadə etmişdi. Bu düşüncələr əslində Bayronun öz şəxsi fikirlərinin əksi idi. Bayronun qəhrəmanı da, şairin özü kimi həyatın mənasını dərk etməyə, şərin və haqsızlığın köklərini tapmağa çalışır və bu axtarışların nəticəsində mənəvi zülmdən, həmin zülmə itaətkarlıqdan imtina edir.

### *Ədəbiyyat*


1. Жирмунский В.М. Байрон и Пушкин. М.: Наука, 1978, 423 с.
2. Dr.Harko G. De Maar.A history of Modern English Romanticism. New York:1970, 221 p.
3. David Duff .Romance and Revolution: Shelley and the Politics of a Genre. Cambridge University Press, 1994 , 276 p.
4. Simon Williams. Wagner and the romantic hero. New York:Cambridge University Press, 2004, 193 p.
5. Манн Ю. В. Поэтика русского романтизма. М.: Наука, 1976, 375 с.
6. Rupert Christiansen. Romantic Affinities: Portraits from an Age, 1780–1830. London: Bodley Head, 1988, 215 p.
7. Poems & Poets viewed 12 May 2013.
8. Дьяконова Н.Я. Лондонские романтики и проблемы английского романтизма. Л.: Изд-во ЛГУ, 1970, 232 с.
9. Bayron Corc Qordon. Seçilmiş əsərlər. Bakı: Şərq-Qərb, 2006, 224 s.


## ОДНО ИЗ БОГАТЫХ СОКРОВИЩ АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЫ РОМАНТИЧЕСКИЙ ГЕРОЙ ПЬЕСЫ ДЖ. Г. БАЙРОНА «КАИН»

***Рустамова Илхама Салех кызы***

### *Резюме*

Романтизм представляет собой огромную эпоху в истории развития мировой литературы и культуры. Англию можно считать прародиной романтизма. Именно в Англии ранее буржуазное развитие вызвало первые антибуржуазные устремления, ставшие впоследствии характерными для всех романтиков. Герой пьесы Дж. Г. Байрона «Каин» — первый герой-бунтарь в истории человечества. Его бунт исходит из того, что он разделяет боль всего человечества.

## ONE OF THE RICH TREASURES OF ENGLISH LITERATURE-THE ROMANTIC HERO OF THE PLAY G.G. BYRON "CAIN"

***Rustamova İlhama Saleh***

***Summary***

Romanticism is a huge era in the history of world literature and culture. England can be considered the ancestral home of romanticism. It was in England that earlier bourgeois development gave rise to the first anti-bourgeois aspirations, which later became characteristic of all romantics. The hero of G.G. Byron's play "Cain" is the first rebel hero in the history of mankind. His rebellion comes from the fact that he shares the pain of all mankind.

***Rəyçi: dosent Əliyeva Zahirə***
***Praktik xarici dillər kafedrasının d 05 dekabr 2022-ci il tarixli iclasın 06 saylı protokolu***
***Daxil olma tarixi***

**UOT:811.**

## MƏTBUAT DİLİNİN LEKSİK-TERMİNOLOJİ TƏRKİBİNDƏ İNFORMATİVLİYƏ GÖRƏ NORMAYA ÇEVRİLƏN SÖZLƏR

***Rzayeva Mədinə Əliağa qızı***
***Gəncə Dövlət Universiteti***
***madinarzayeva@yahoo.com***

**Xülasə:** *Mətbuat dilində işlənən və normalaşan terminlər ana dilinin leksik-terminoloji potensialını zənginləşdirən dil vahidlərinə çevrilir. Belə terminlərin normalaşmasında mətbuat dilinin kütləviləşdirici funksiyası başlıca rol oynayır. Kütləviləşə bilən terminlər daha çox ictimai-siyasi, mədəni-məişət və informasiya məzmunlu dil vahidlərindən ibarət olur. Normalaşa bilməyən terminlər mətbuat dilində müəyyən müddət ərzində işlənərək sonradan unudulur. Belə terminlər reali məzmunlu dil vahidləri deyil, az müddət işlənib sonra təkrar olunmayan ekzotik xarakterli sözlərdən ibarətdir. Bu tipli terminlər mətbuatda daha çox Avropalılığa meyilliliklə bağlı olan dəb xarakterli dil vahidləri kimi nəzərə alınır.*

**Açar sözlər:** çeviklik,potensial,meyillilik, unifikasiya, müvafiq
**Ключевые слова:** гибкость, потенциал, склонность, унификация, соответственный
**Key words:** flexibility, potential, inclination, unification, corresponding

Mətbuat dilinə daxil olan və alınma kimi işlədilən leksik-terminoloji vahidlərin hamısı mənimsənilmə imkanlarından məhrum deyildir. Sosial-ictimai həyatda baş verən yeniliklər, elmi-texniki inkişafla bağlı olan nailiyyətlər müasir informasiya texnologiyaları vasitəsi ilə çox sürətlə yayılır və ayrı-ayrı dillərdə özünə işləklik mühiti yaradır. Mətbuat dilinə məxsus çeviklik isə belə söz və terminoloji vasitələrin işlədilməsi üçün mövcud imkanları daha da genişləndirir. Əlbəttə ki, müasirliklə və yeni anlayışların ifadə olunması zərurəti ilə söz almanın heç bir neqativ göstəricisi yoxdur. Əksinə bu cür sözlərin alınıb işlədilməsi və